# Müxalifətdən YAP-a təbrik

## Daxili və xarici siyasətdə uğurlar hakim partiyanın mövqeyi ilə bağlıdır

**Yeni Azərbaycan Partiyası ölkənin aparıcı siyasi təşkilatıdır. Sıralarında 700 mindən çox üzv yer alır və partiyanın tərkibi ildən-ilə genişlənməkdədir. Keşməkeşli dövrlərdən keçən YAP-ın Azərbaycan dövlətinin yaradılması və inkişafı istiqamətində gördüyü işlər böyük əhəmiyyətə malikdir.**



Ulu Öndər Heydər Əliyev partiyanın ilk Sədri olub və 1992-ci ildə təsis olunmuş partiya, əslində, onun xarizması ətrafında yaranıb. Fəaliyyəti ilə özünü doğrultmuş bu partiyanın rəhbərliyi ilə Azərbaycan dövləti iqtisadi nailiyyətlərə nail olmuş, dövlətimizi kataklizmlərdən çıxartmış, nəhayət, Prezident İlham Əliyevin simasında müzəffər dövlətə çevirmişdir.

Yeni Azərbaycan Partiyasının bu fəaliyyəti təkzibolunmazdır, təqdirəlayiqdir və biz bunu çox yüksək qiymətləndiririk. Yeni Azərbaycan Partiyası özünün inkişaf dövründə həmişə hətta ona inanmayanları belə YAP-ın sağlam əqidəsinə inandırmağı bacarıb və monolit qüvvə kimi özünü göstərib. Təsadüfi deyil ki, parlamentdə Yeni Azərbaycan Partiyasının təmsilçiliyi daha yüksəkdir. Çünki YAP aparıcı qüvvəyə malikdir və həmişə olduğu kimi söz sahibidir.

Yeni Azərbaycan Partiyasının fəaliyyətinə uğurlar arzulayıram. İnanıram ki, partiyanın Sədri cənab İlham Əliyevin rəhbərliyi ilə YAP daha da inkişaf edəcək. Azərbaycan daha böyük uğurlara imza atacaq, məqsədlərinə nail olacaq və dövlətimizin qarşısında duran böyük vəzifələr yerinə yetiriləcək. Şübhəsiz ki, Azərbaycanın daxili və xarici siyasətdə uğurları Yeni Azərbaycan Partiyasının və onun rəhbərliyinin mövqeyi ilə bağlıdır. Hakim partiyanın davamlı fəaliyyəti nəticəsində Azərbaycan inkişaf etmiş gözəl bir dövlət olacaq. Necə ki dövlət suverenliyimizi, ərazi bütövlüyümüzü bərpa etmişik, bütün torpaqlarımızda Azərbaycanın üçrəngli bayrağı ucaldılıb, bununla yanaşı, bütün sahələrdə də böyük nailiyyətlər əldə edəcəyik.

Vəhdət Partiyası olaraq partiyanın hörmətli Sədri cənab İlham Əliyevi, birinci müavini Mehriban xanım Əliyevanı və bütün partiya üzvlərini ürəkdən təbrik edir və onlara Azərbaycan naminə fəaliyyətlərində uğurlar arzulayıram.

**Tahir KƏRİMLİ,**
*Milli Məclisin deputatı,*
*Vəhdət Partiyasının sədri*

Azərbaycan.- 2023.-21 noyabr, № 253.- S.9.